# Yasamal: İnkişafın yeni mərhələsi başlanır

***2016-cı il artıq tarixə qovuşdu. Yola saldığımız il ciddi maliyyə və iqtisadi böhran, yeni münaqişələrin yaranması, terror aktlarının çoxluğu, dünya bazarında neftin kəskin ucuzlaşması ilə yadda qaldı. Təbii ki, Azərbaycan dünyanın bir parçası olduğundan beynəlxalq aləmdə baş verən proseslər ölkəmizdən də yan keçməmişdir. Lakin, həmişə olduğu kimi, ötən il də Azərbaycan ictimai-siyasi sabitliyin davamlılığına görə dünya birliyinin diqqət mərkəzində olmuşdur. Bununla yanaşı, düzgün müəyyənləşdirilmiş siyasi və iqtisadi strategiya respublikamızı geriləmədən qorumuş, üstəlik müəyyən sahələrdə irəliləyişlərə də nail olmuşdur.***

Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında, həmçinin 20 gün sonra keçirilən “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfrasda bu barədə ətraflı məlumat verilmişdir. Dövlətimizin başçısı qeyd etmişdir ki, 2016-cı ildə dünyada və yaşadığımız regionda təhlükələrin artmasına, bölgədə sabitliyin pozulmasına və iqtisadi inkişafla bağlı vəziyyətin ağırlaşmasına baxmayaraq, ölkəmizdə təhlükəsizlik tədbirləri təmin edilmişdir. Ötən il ölkə qarşısında duran bütün əsas vəzifələr təmin edilərək, iqtisadi sahədə önəmli addımlar atılmış, demək olar ki, bütün sferalarda iqtisadi islahatlara başlanmışdır. Qeyri-neft sənaye istehsalı 5 faiz, kənd təsərrüfatı 2,6 faiz artmışdır. Ölkəyə 8 milyard dollar xarici, 3,7 milyard dollar daxili investisiya cəlb edilmişdir.



Azərbaycan iqtisadiyyatı mötəbər beynəlxalq iqtisadi və maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilmişdir. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə iqtisadiyyatımız irəliləyərək 40-cı yerdən 37-ci yerə yüksəlmişdir. Ermənistanın törətdiyi təxribatın qarşısının alınması, əks-hücum əməliyyatı nəticəsində 2 min hektar ərazimizin işğaldan azad edilməsi də məhz ötən il baş tutmuşdur. Bununla yanaşı, ölkəmiz mötəbər beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi etmişdir. İrimiqyaslı sosial layihələr icra olunmuş, 29 məktəb tikilmiş, 485 məktəbdə təmir işləri aparılmış, 41 səhiyyə obyekti inşa və ya təmir edilmişdir.



Faktlar da təsdiləyir ki, dövlət başçımızın düzgün müəyyənləşdirdiyi strategiya nəzərdə tutulmuş layihələrin reallaşdırılmasına zəmin yaratmış, əhalinin həyat səviyyəsinin yüksəldilməsi diqqət mərkəzində saxlanılmışdır. Belə çətin məqamda aztəminatlı ailələrin və doğma ocaqlarından didərgin salınmış soydaşlarımızın rifah halının yaxşılaşdırılması istiqamətində də əhəmiyyətli tədbirlər görülmüşdür.

Respublikamızda həyata keçirilən böyük quruculuq, abadlıq və yenidənqurma işləri regionların, paytaxtımızın, eləcə də Yasamal rayonunun gündən-günə abadlaşan simasında özünü büruzə vermişdir. Bu uğurlar ötən il rayonda sənaye məhsulunun, nəqliyyat sektorunda xidmətlərin və digər sahələrin artımında da özünü göstərmişdir. Həmçinin rabitə xidmətləri və pərakəndə əmtəə dövriyyəsinin həcmi də keçən ilin müvafiq dövrü ilə müqayisədə artmışdır. Orta aylıq əmək haqqı 5 faiz artaraq, 622 manat olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli icra hakimiyyətlərinin qarşısında qoyduğu vəzifələrin icrasını təmin etmək məqsədi ilə Yasamal rayonunda da xeyli iş görülmüşdür. Rayon statistika idarəsindən verilən məlumata görə, ötən il 4567 yeni iş yeri açılmışdır. Onlardan 1457-si yeni yaradılmış müəssisə və təşkilatlarda, 3110-u isə fiziki şəxslərdən ibarət olmuşdur. Rayon məşğulluq mərkəzinə 9333 nəfər müraciət etmişdir. Onların 7283 nəfəri işaxtaran vətəndaş kimi qeydiyyata alınmışdır. 1198 nəfər daimi işlə təmin edilmişdir.

Dövlət büdcəsindən rayonun abadlıq və quruculuq işlərinə 551340 manat, çoxmənzilli 5 binanın təmiri üçün 884800 manat vəsait ayrılmışdır. Bu işlərin yerinə yetirilməsinə 319 nəfər işçi qüvvəsi cəlb olunmuşdur. 5 ay ərzində yaşayış binalarının təmiri başa çatdırılmış və binaların əsaslı təmir işləri nəticəsində 421 ailənin mənzil-məişət şəraiti xeyli yaxşılaşmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 fevral 2016-cı il tarixli 86 nömrəli “Bakı şəhərinin Suraxanı, Nəsimi, Xətai, Nərimanov, Nizami, Yasamal, Səbail, Pirallahı, Xəzər rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər barədə” qərarının icrasına ilk olaraq Yasamalda başlanmışdır. 2016-2020-ci illərdə Yasamal rayonu ərazisində qəzalı vəziyyətdə olan 19 yaşayış binasının mərhələli şəkildə sökülüb yenidən tikilməsi nəzərdə tutulur. Yasamal Rayon İcra Hakimiyyəti tərəfindən artıq bu binalardan 12-nin: – Abbas Mirzə Şərifzadə, 86, 122, Akim Abbasov, 3, İsfəndiyar Zülalov, 19, Məhəmməd Naxçıvani, 25, 27, Süleyman Dadaşov küçəsi, 568-ci məhəllə, 16/33, 15/42, 13/38, Zahid Xəlilov küçəsi, 568-ci məhəllə, 14/40, 18/46 nömrəli qəzalı evlərin sənədləşmə işləri tam başa çatdırılaraq sərəncamla tikinti işlərinə icazə verilmişdir. “Kristal-Abşeron”, “İnşaat Konstruksiyaları”, “Ehtibar İnşaat”, “ELİTE SİTİ” MMC-ləri və “De-Lyuks” mənzil tikinti kooperativi tərəfindən əhalinin kirayə evlərə köçürülməsi, qəzalı evlərin sökülüb yeni binaların tikintisinə başlanılması istiqamətində artıq xeyli iş görülmüşdür. Sakinlərə kirayə evlərə görə ilyarım ərzində vəsait ödəniləcək. İnşaat işlərinə 550 nəfər işçi qüvvəsi cəlb olunmuşdur. Qəzalı evlərin əvəzinə yeni müasir yaşayış evlərinin inşası sosial problemlərin həlli ilə bərabər əhalinin rifahının yaxşılaşdırılmasına da şərait yaradacaqdır. Beləliklə, Yasamal rayonunda həyata keçirilən pilot layihə sayəsində 615 ailənin sosial problemi həll olunacaq, mənzil-məişət şəraiti və rifahı xeyli yaxşılaşacaqdır. Pilot layihənin icrasına nəzarət bilavasitə rayon icra hakimiyyəti tərəfindən həyata keçirilir və icra olunmuş işlər barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına ayda iki dəfə hesabat verilir.



Azərbaycan Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin iclasında yekun nitqində qarşıda duran vəzifələrlə bağlı qeyd etdiyi iki layihə bilavasitə Yasamal rayonunun ərazisində icra olunur. Bakı şəhərinin Baş Planı və “Mənzil İnşaatı Dövlət Agentliyi” Məhdud Məsuliyyətli Cəmiyyətin birinci layihəsinin icrasına Prezidentin nitqində xüsusi yer verilməsi bu tədbirlərin çox mühüm əhəmiyyət kəsb etdiyini bildirir.

Yasamal rayonunda qarşıya qoyulmuş mühüm vəzifələrdən biri də, bəlkə də, ən mürəkkəbi Bakı şəhərinin Baş Planına əsasən “Sovetski” adlanan ərazidə köçürmə və daşınmaz əmlakın sökülməsi işi olmuşdur. Qeyd edək ki, bu proses bu gün də davam etdirilir. Artıq ərazidə 8769 ünvanda ölçü işləri aparılmış, 3706 yaşayış və qeyri-yaşayış sahələrinin sahibləri ilə razılaşma əldə edilərək sənədlər alqı-satqı əməliyyatına təqdim olunmuşdur. Onlardan 3617-nə görə vəsait ödənilmişdir. 3797 daşınmaz əmlak sökülərək ərazi təmizlənmişdir. Ötən il avqustun 4-də Prezident İlham Əliyev yeni yol-nəqliyyat infrastrukturunun təməlqoyma mərasimində iştirak etmiş, Yasamal Rayon İcra Hakimiyyəti tərəfindən burada həyata keçirilən işləri yüksək qiymətləndirmişdir. Dövlətimizin başçısı, eyni zamanda, Bakı şəhərinin Baş Planının icrasına dair öz tövsiyələrini vermişdir. Artıq Təzəpir məscidinin ətrafında və Nəriman Nərimanov prospektindən İsmayıl bəy Qutqaşınlı küçəsinədək ərazidə də köçürmə işlərinə başlanılmışdır.



“Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 858 nömrəli fərmanının icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 iyul 2016-cı il tarixli və Bakı Şəhər İcra Hakimiyyəti Başçısının 29 iyun 2016-cı il tarixli sərəncamlarına əsasən Xarici Dairəvi avtomobil yolunun kənarında, “Qanlı Göl”ün şimal hissəsində 11,6 hektar torpaq sahəsi “Mənzil İnşaatı Dövlət Agentliyi” Məhdud Məsuliyyətli Cəmiyyətin istifadəsinə verilmişdir. Sosial evlərin tikintisi üçün ayrılmış ərazinin zəbt olunmuş 1,5 hektar hissəsində hasarlar ləğv edilmiş, 480 kvadratmetr müxtəlif təyinatlı qeyri-qanuni tikili Yasamal Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin texnikası və işçi qüvvəsinin köməyi ilə sökülmüşdür.

Ötən il dekabrın 24-də Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ilk 9 mərtəbəli yaşayış və məktəb binasının təməlqoyma mərasimində iştirak etmişlər. Mənzillər güzəştli şərtlərlə vətəndaşlara, xüsusilə maddi imkanı məhdud olan ailələrə uzunmüddətli kreditlə veriləcəkdir. Bu qurumun yaradılması aztəminatlı vətəndaşların mənzil təminatı sahəsində həyata keçirilmiş ən mühüm tədbirlərdən biri kimi dəyərləndirilməlidir.



Rayonda imtiyazlı ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində olmuşdur. Güzəştli mənzil növbəsində olan 15 şəhid ailəsi, 5 Qarabağ Müharibəsi əlili, bir 20 Yanvar şəhid ailəsi, üç 20 Yanvar əlili, doqquz 1-ci və 2-ci qrup gözdən əlil və bir nəfər Qarabağ müharibəsi iştirakçısı 2017-ci ili yeni mənzillərdə qarşılamışlar.

Ötən ilin yaddaqalan ən mühüm hadisələrindən biri də aprel ayında ordumuzun erməni təxribatlarına sarsıdıcı zərbə vurması və uzun illər düşmən əsarətində olmuş 2 min hektar ərazinin və bir sıra strateji əhəmiyyətli yüksəkliklərin düşməndən azad edilməsi olmuşdur. Bu tarixi qələbə xalqımız tərəfindən çox böyük ruh yüksəkliyi ilə qarşılanmışdır. İstər hərbi əməliyyatların keçirildiyi, istərsə də sonrakı günlərdə baş verən hadisələr Azərbaycan Respublikası Prezidentinin, ordu və xalq birliyinin bariz nümunəsi idi. Bu döyüşlərdə Yasamal rayonunun sakinləri Novruzov Mirzə Sərvər oğlu, Hacıağayev Cabbarxan İlham oğlu, Quliyev Mahir Qadir oğlu və Mirzəyev Murad Telman oğlu rəşadət göstərərək şəhid olmuşlar. Şəhidlərimizin hüzn mərasimində rayonun əksər sakinləri iştirak etmişlər.



Rayonda təhsilin, səhiyyənin və digər sahələrin inkişafı diqqət mərkəzində olmuşdur. Ötən il, həm də tam orta ümumtəhsil məktəblərinin uğurlu göstəriciləri ilə də yadda qalıb. Akademik Zərifə Əliyeva adına lisey, Avropa liseyi, 60 nömrəli tam orta məktəb, İncəsənət Gimnaziyası, Fizika-riyaziyyat və informatika təmayüllü lisey, 13 və 167 nömrəli tam orta məktəblər yüksək nailiyyətləri ilə fərqlənmişlər. Ümumilikdə, rayon üzrə ali məktəblərə qəbul 63 faiz təşkil etmişdir.

Rayonun səhiyyə müəssisələri tərəfindən əhalinin icbari tibbi müayinəsi müəyyən olunmuş müddətdə uğurla başa çatdırılmışdır. Azərbaycan Prezidentinin tapşırığına əsasən icbari tibbi müayinə tədbirləri bu il də davam etdiriləcəkdir.

Əhalini ən çox narahat edən problemlərin aradan qaldırılması diqqət mərkəzində olmuşdur. Rayon sakinlərinin, hüquqi və fiziki şəxslərin təbii qaz, elektrik enerjisi və içməli su ilə təchizatı məsələsi, demək olar ki, bütünlüklə həll edilmişdir. Payız-qış mövsümünə hazırlıqla bağlı Yasamal Rayon İcra Hakimiyyəti başçısının 11 avqust 2016-cı il tarixli sərəncamı ilə tədbirlər planı təsdiq edilmiş, kommunal xidmətlərlə bağlı zəruri işlər görülmüşdür.

Bakı Regional Qaz İstismar Departamenti mərkəzi rayonlar üzrə texniki istismar xidməti tərəfindən Tağı Şahbazi, Kazım Kazımzadə, Balababa Məcidov küçələrindən keçən qaz xətləri dəyişdirilmiş, Abbas Mirzə Şərifzadə, 104, 192, Vasif Əliyev, 164 saylı yaşayış evlərində, Zahid Xəlilov, 568 və 577-ci məhəllələrdə yararsız qaz tənzimləyiciləri yeniləri ilə əvəz olunmuşdur. Zaur Kərimov və Dadaş Bünyadzadə küçələrinin kəsişməsində isə yeni qaz xətti çəkilmişdir. İstehlak olunmuş təbii qazın dəyəri 100 faiz ödənilmişdir. Əhalinin elektrik enerjisi və içməli su ilə təmin olunmasında qarşıya çıxan problemlər tamamilə aradan qaldırılmışdır.



Yasamal Rayon İcra Hakimiyyəti tərəfindən son illərdə formalaşan ənənələr ötən il də davam etdirilmişdir. 20 Yanvar faciəsinin 26-cı ildönümü, 8 Mart Beynəlxalq Qadınlar Günü, Novruz bayramı, Böyük Vətən müharibəsində Qələbənin 71-ci ildönümü, Respublika Günü, dahi şair, dramaturq Hüseyn Cavidin anadan olmasının 135 illiyi və sair əlamətdar günlərlə əlaqədar təntənəli tədbirlər keçirilmişdir. “Ölkəmizi tanıyaq” tur-aksiyası çərçivəsində təhsildə yüksək göstəriciləri ilə fərqlənən şagirdlərin mart ayında Naxçıvan Muxtar Respublikasına, noyabr ayında cənub bölgəsinə səfərləri təşkil olunmuşdur. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə Yasamal rayonunun idarə, müəssisə və təşkilatlarında silsilə tədbirlər keçirilmiş, genişmiqyaslı abadlıq-quruculuq işləri aparılmışdır. Ötən ilin mart ayından mayın 10-dək hər həftənin şənbə və bazar günlərində rayon ərazisində ağacəkmə kampaniyası, yaşıllaşdırma işləri həyata keçirilmişdir. Mayın 10-da Bakı Dairəvi yolun kənarında ümumilikdə 3500 nəfərin iştirak etdiyi iməcilikdə 1500 dekorativ ağac və bəzək kolu əkilmişdir.

Əhalinin ərizə və şikayətləri, müraciətləri, habelə təklifləri rayon rəhbərliyi tərəfindən diqqətdə saxlanılan prioritet sahələrdəndir. Yola saldığımız ildə rayon icra hakimiyyəti başçısının aparatına vətəndaşlardan 3822 müraciət daxil olmuşdur. Bu da 2015-ci illə müqayisədə azdır. Rayon icra hakimiyyəti başçısının qəbulunda 621 nəfər–aparatda 354, səyyar qəbul-görüşlərdə 267 nəfər iştirak etmişdir. Bütün müraciətlərə “Vətəndaşların müraciətləri haqqında” Qanunun tələblərinə uyğun baxılması təmin edilmişdir.

Faktlar da təsdiqləyir ki, Yasamal rayonu inkişafın yeni mərhələsinə qədəm qoymuşdur. Bu mərhələdə qarşıda duran vəzifələrin uğurla icra olunması üçün bütün imkanlardan istifadə olunacaq. Əsas vəzifələrdən biri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının arxasındakı 26 hektar ərazidə ictimai yerlər, yeni yol infrastrukturunun yaradılmasıdır. Ölkə başçısının tapşırığına əsasən bu il ərzində təsdiqlənmiş layihə tam icra edilməlidir. Bu ərazidə yeni, böyük bir ictimai parkın şəhər sakinlərinin istifadəsinə veriləcəyi nəzərdə tutulub. Tarixi, dini abidəmiz olan Təzəpir məscidinin qarşısında da böyük park yaradılacaqdır.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2017-ci il “İslam Həmrəyliyi ili” elan edilib. Bu qərar ölkə rəhbərliyi tərəfindən multikultural dəyərlərə verilən qiymətin bariz nümunəsidir. Bir faktı da diqqətə çatdıraq ki, ölkəmiz bu il IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcək. Bu tədbir təkcə idman yarışları baxımından deyil, eyni zamanda, siyasi, iqtisadi və mədəni cəhətdən böyük əhəmiyyət kəsb edir. Xəbər verildiyi kimi, yarışlarda 21 idman növü üzrə 57 ölkəni təmsil edən 6000-dən çox idmançı mübarizə aparacaq. Bu yarışlara ciddi hazırlıq işləri davam etdirilir. Yasamal rayonunda bu nüfuzlu beynəlxalq idman yarışı ilə əlaqədar görüləcək işlər artıq start götürüb. Ötən illərdə olduğu kimi, bu il də rayonun müvafiq qurumları üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcək.

Yasamal paytaxtın böyük rayonlarındandır. Son illər görülən işləri təhlil etdikcə, bir daha aydın olur ki, rayon inkişafın yeni mərhələsinə qədəm qoyub. Maliyyə və iqtisadi böhranın hələ də davam etməsinə baxmayaraq, qarşıya qoyulan vəzifələrin icrası uğurla davam etdirilir, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirilir.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***